# USTA (YAŞAYIŞ YERLƏRİNDƏ QAZ XƏTLƏRİNƏ VƏ MƏİŞƏT QAZ CİHAZLARINA NƏZARƏT XİDMƏTİ) VƏZİFƏSİ ÜZRƏ MÖVZULAR

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı ilə təsdiq edilmiş "Qazdan istifadə qaydaları"
2. "Qaz təsərrüfatında texniki istismar qaydaları"
3. "Qaz təsərrüfatında texniki təhlükəsizlik qaydaları"
4. Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən təsdiq olunmuş "Azərbaycan neft sənayesində əməyin mühafizəsinin Vahid idarəetmə Sistemi"
5. Qaz xətlərinin sxemlərinin oxunması
6. Qaz tənzimləyici məntəqələrin, Qaz paylayıcı stansiyaların, Kompressor stansiyaların texniki xarakteristikaları

**1.Qazdan istifadə Qaydaları"na əsasən qaz paylayıcısı ilə istehlakçı arasında qaz təchizatı üzrə münasibətləri hansı sənəd əsasında müəyyənləşdirilir?**
A) "Enerji təchizatı haqqında" Azərbaycan Respublikasının Qanunu
B) Qazın istifadəsinə dair ikitərəfli akt
C) Qazın alqı-satqı müqaviləsi
D) Qarşılıqı öhdəliklərə dair müqavilə
E) Qazın alış –satış qiymətləri müqaviləsi

**2. "Qazdan istifadə Qaydaları"na əsasən istehlakçılara qazpaylayıcı şəbəkə vasitəsilə qazın paylanılmasını, satılmasını və bu fəaliyyətlərlə əlaqədar xidmətləri kim həyata keçirir?**
A) İstehlakçı
B) İstehsalçı
C) İstifadəçilər
D) Qaz nəzarətçisi
E) Qaz paylayıcısı

**3.Əhalinin məişət ehtiyacları üçün qazın yanacaq kimi istehlakı prosesində istifadə olunan,dövlət standartlarının tələblərinə cavab verən və uyğunluq sertifikatı olan məişət qaz qurğusnun ümumi sərfiyyatı nə qədər olmalıdır?**
A)Saatda 10 kubmetrdən artıq
B)Saatda 10 kubmetrədək
C)Sutkada 100 kubmetrədək
D)Saatda 150 kubmetrədək
E)Aylıq 1000 kubmetrədək

**4.Qaz paylayıcısı tərəfindən qazın istehlakçıya çatdırılma məntəqəsində qaz paylayıcısı və istehlakçı arasında müqavilə ilə qazpaylayıcı şəbəkənin balans mənsubiyyətini müəyyənləşdirən ayırma nöqtəsi necə adlanır?**
A) Sayğac quraşdırma nöqtəsi
B) İstehlakçının ərazi sərhədi
C) Ümumi istifadə sərhədi
D) Balans mənsubiyyəti sərhədi
E) Xüsusi nəzarət sahəsi

**5.Qaz paylayıcısı tərəfindən istehlakçının qazla təchiz edilməsi hansı sənədə əsasən həyata keçirilir**?
A)Qazın alqı-satqı müqaviləsinə
B)Qazdan istifadəyə dair müqaviləyə
C)Balansı mənsubiyyəti müqaviləsinə
D)Qaz təchizatı müqaviləsinə
E)Qaz istifadəçiləri ilə razılaşma müqaviləsinə

Nümunə

**6.Qazpaylayıcı şəbəkənin balans mənsubiyyəti sərhədini müəyyən edən aktda kimlər arasında sərhədi müəyyən edir?**
A)Qaz paylayıcısı ilə istehsalçı arasında
B)Qaz paylayıcısı ilə istehlakçı arasında
C)Fizki və hüquqi şəxslər olan qaz istehlakçıları arasında
D)Qaz istehsalçısı ilə qaz paylayıcısı arasında
E)Qaz paylayıcısı ilə qaz satışı xidməti arasında

**7.İstehlakçıya tələb olunan qazın həcmi nəyə uyğun olaraq müəyyən edilir?**
A)Qaz paylayıcının ötürə biləcəyi qaz qurğularının texniki pasport göstəricilərində maksimal saatlıq qaz sərfinə
B)İstehlakçının istifadə etdiyi qaz qurğularının texniki pasport göstəricilərində maksimal gündəlik qaz sərfinə
C)İstehlakçının istismar edəcəyi qaz qurğularının texniki pasport göstəricilərində maksimal aylıq qaz sərfinə
D)İstehlakçının istismar edəcəyi qaz qurğularının texniki pasport göstəricilərində maksimal saatlıq qaz sərfinə
E)İstehlakçının istismar edəcəyi qaz qurğularının texniki pasport göstəricilərində maksimal illik qaz sərfinə

**8.Yalnız tikintisi və ya yenidən qurulması nəzərdə tutulan, habelə qaz təchizatı sxemi dəyişdirilən qaz qurğularının qazpaylayıcı şəbəkəyə qoşulması üçün qaz paylayıcından hansı sənədlər alınmalıdır?**
A) İstismara qəbul aktı
B) Texniki şərtlər
C) Təhvil-təslim aktı
D) İstifadə şərtləri
E) Texniki istismar şərtləri

NÜMUNƏ